# SÖZÜN BAHAR GÜLLƏRİ

*(Əvvəli ötən saylarımızda)*

Sözlə müəllif arasındakı ünsiyyət dərinləşdikcə tərəflər arasındakı məsafə daha çox qısalır. Müəllif özünü sözdə tapdığı kimi, söz də müəllifin varlığında doğmalaşır, daha alt qatlardakı sirlərini ona etibar edir. Sözün görünən və görünməyən tərəfləri göz oxşayan, könül sevindirən rəngləri ilə üzə çıxır. Söz sanki canlanır, həyatın sevincini və kədərini, göz yaşlarını yaxud, gülüşünü, bir sözlə həyatın ağını ya qarasını... dəxli yoxdur, görməkdə yazıçıya açar olur.

Qeyd etdiyimiz kimi, Şəfəqin sözlə ünsiyyəti hələ orta məktəbdən, ilkin yeniyetməlik çağlarından başlamış və bu, elə bir ünsiyyətə çevrilmişdir ki, artıq ondan heç cür ayrıla bilməzdi. Bakı Dövlət Universitetinin (o vaxtkı ADU-nun) jurnalistika fakültəsinə uğurla qəbul olunması Şəfəqə yeni imkanlar açırdı. Yeni mühit, qaynar tələbəlik həyatı, əsərlərini oxuyub, kitablardan tanıdığı elm və sənət adamları ilə canlı ünsiyyət onu daha da ilhamlandırır, sözün romantikası ilə nəfəs almağa sövq edirdi. Şəfəqin artıq kifayət qədər sözlə işləmək səriştəsi, yazı bacarığına malik olması elə ilkin tələbəlik çağlarından özünü büruzə verdiyindən müəllimlərinin də diqqətini cəlb edir.

Tələbəlik dövrü yaradıcılığını diqqətdən keçirəndə Şəfəqin üç istiqamətə meyili müşahidə olunur.

**Birinci** - jurnalist yazıları - xəbərlər, oçerklər, reportajlar

**İkinci** - ədəbi-tənqidi qeydlər, ilkin ədəbi-elmi tədqiqatlar

**Üçüncü -** nəsr əsərləri - hekayələr, miniatürlər, esselər.

Tələbənin yaradıcılıq fəaliyyətinin formalaşmasında öz müəlliminə qibtə hissinin rolu müstəsna əhəmiyyət daşıyır. Həmin dövrdə jurnalistikanın sirlərini öyrədən görkəmli jurnalistlər təkcə Şəfəqin oxuduğu fakültədə - universitetdə deyil, o vaxtkı ittifaq miqyasında da yüksək nüfuza malik Nəsir İmamquluyev, Şirməmməd Hüseynov, Nurəddin Babayev, Famil Mehdi... kimi simalar sözün həqiqi mənasında jurnalistikaya, sözə sevgi ilə gəlmiş tələbələr üçün qibtə örnəyi idi. Şübhəsiz, bu müəllimlərin həm şəxsiyyətləri, həm də yaradıcılıqları Şəfəqə təsirsiz ötüşmürdü. Elə bu təsirin altında Şəfəq tələbəlik dövründə fəal jurnalist fəaliyyəti ilə özünü təsdiq etməkdə idi. Sözə pərvazlanmaq üçün ona ilkin meydan vermiş "Yüksəliş" qəzetində ardıcıl olaraq yazılarını dərc etdirir. "Torpaqla bağlı ömür" (25 iyun 1973-cü il), "Zəhmətlə ucalır insan" (1974-cü il), "Bənna əməyi" (15 avqust 1973-cü il), "Rənanın sevinci"(1974-cü il), "Milin qoçaq qızı" (1974-cü il).

Yazıların adlarından da göründüyü kimi, Şəfəqin ədəbi qəhrəmanları əmək adamlarıdır. Dövrün tələbinə uyğun zəhməti idealizə etmək, əməyi insanı kamilləşdirən əsas vasitə kimi tərənnüm etmək... bu yazıların əsas qayəsidir. Ayrı-ayrı yazıların ədəbi obrazları - Məmməd Şükürov ekskovatorçu, Rəna Əliyeva sağıcı, Əliş Əliyev bənna, Rübabə Vəliyeva pambıqçı mexanizatordur. Şəfəq haqqında yazacağı adamları yaxşı öyrənir, onların ailə mühiti, öz işlərinə münasibəti, iş təcrübələri, əmək göstəriciləri haqqında dolğun təsəvvürə sahib olduqdan sonra qələmini işlədir. Demək olar ki, heç bir yazıda artıq sözə və təfərrüfata yol vermir. Sanki sözə qənaət edir, onun fəal jurnalistik fəaliyyəti, xüsusilə, operatif fəaliyyəti birinci kursdan təcrübə keçdiyi Azərbaycan Televiziyasında televiziya əməkdaşlarının da diqqətini cəlb edir. O, televiziyanın bir sıra populyar verilişlərində («Necəsən, gənc dost», «Hünər») müəllif və aparıcı kimi uğurlu fəaliyyət göstərir, bir sözlə, jurnalist kimi tez parlayır.

İkinci yaradıcılıq istiqaməti... bu, daha çox ədəbi tənqidlə bağlı idi.

Deyirlər ki, insan həyatının istiqaməti üçün bir tale diktəsi də var. Bu diktə, əslində, onun mənəvi mühitindəki qaynar enerji ilə bağlıdı. İstedad və zəhmət birləşirsə, demək, insan öz mühitinə sığmır. O, daha geniş üfüqlər istəyir.

Şəfəqin hələ orta məktəbdən üzü bəri ardıcıl və sonsuz istəklə mütaliə imkanları olub. Bədii ədəbiyyatı sevmək, mütaliə etmək onun üçün hobbi deyildi, xüsusi daxili-mənəvi tələbat idi. Oxuduğu əsəri təhlil etməyi, müəlliflə mübahisəyə girməyi, ədəbi əsərdəki hadisə və obrazların həyati həqiqətlərlə təsdiqi... məsələləri onu daha çox çəkirdi. Yetmişinci illərdə ədəbi tənqidin görkəmli simaları - Qulu Xəlilov, Tofiq Hacıyev, Bəkir Nəbiyev... kimi tənqidçi ədəbiyyatşünasların yazıları, çıxışları... ədəbi mübahisələrdəki mövqeləri Şəfəqə özünüifadə üçün yeni istiqamət göstərir, işıq olurdu...

Beləliklə, Şəfəqin ədəbi-tənqidi yaradıcılığının ilkin mərhələsi onun tələbəlik həyatı ilə başlayır. Ilk ədəbi-tənqidi yazılarını dövrün nüfuzlu mətbuat orqanlarında dərc etdirir. Bu sıradan "Ədəbiyyat və incəsənət", "Yeni fikir" qəzetlərində, "Ulduz" və "Azərbaycan" jurnallarında, "Kitablar aləmində" dərgisində işıq üzü görən yazıları ədəbi fikir məhsulu kimi bu gün də dəyərlidir və oxucunun düşüncə aləminə sirayət edə bilir. Müəllif ilkin ədəbi tənqidi yazıları ilə öz oxucusunu sözün cazibəli mühitinə çəkir. Onları bədii düşüncə məhsulunun qaynar aləmində mövqe seçməyə vadar edir.

Şəfəqin üçüncü yaradıcılıq istiqaməti nəsrlə bağlıdır. "Həyatın bir parçası»nı yazıya gətirmək, bədii lövhələr yaratmaq, özünün həyata münasibətini yaratdığı obrazlar vasitəsilə cəmiyyətə təqdim etmək... gənc nasir üçün sonsuz zövq mənbəyi idi. Sanki, sözə sevgisindən aldığı mənəvi təminat onu qanadlandırırdı. Tələbəlik dövründən başlayan nəsr yaradıcılığı "Gecə yağışı" kitabında hekayələri ilə təmsil olunur. Ancaq bu barədə bir qədər sonra.

Şəfəqin ədəbi-tənqidi yaradıcılığı onun mənəvi mühitində bir qədər dalğalı olsa da ötəri olmadı. Ardıcıl və davamlı tədqiqatlara çevrildi. Onun bu dövr yaradıcılığı üçün xarakterik olan bir neçə məqaləsi haqqında bir qədər ətraflı danışmaq olar.

"Ürək yaman şeydir" ədəbi-tənqidi məqaləsini altmışıncı illər ədəbi nəsrinin çox istedadlı nümayəndəsi Ə.Əylislinin eyniadlı kitabında toplanmış hekayələrin təhlilinə həsr edib. Müəllif əvvəlcə dövrün ədəbi mühitində əsas xarakterik olan cəhəti bir neçə cümlə ilə, ancaq, sərrast məntiqlə şərh edir: "60-70-ci illərdə ədəbiyyata gələn gənclərin, xüsusən, nasirlərin yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdən biri müasir həyatımıza, insanın zəngin və narahat mənəvi dünyasına, hadisələrin ictimai mahiyyətinə marağın güclənməsidir. Qüvvətli müasir ruh, ayıq və ağıllı düşüncə tərzi bu gəncləri bir-birinə yaxınlaşdırır". Məqalə müəllifi yazının girişində yazıçının mənsub olduğu ədəbi nəslin ayrı-ayrı nümayəndələrini bir-biri ilə birləşdirən məqamlara diqqət göstərir. Həyata münasibət baxımından dünyagörüşünün yaxınlığını əsas amil hesab edir. Yeni ədəbi nəslin insan qarşısında məsuliyyət hissini qabarıq göstərmək məqsədini duymaq çətin deyil. Hər halda, məqalənin girişindəcə gənc tənqidçinin kifayət qədər hazırlıqlı olduğu, ədəbi mühiti qədərincə dərk etdiyi də anlaşılır. Yazıçının yeni nəşr olunan kitabına qədər hansı əsərlərlə tanındığı və bu əsərlərin əsas motivi onun diqqətindən yayınmır. Sonra gənc tənqidçi yazıçının sələfləri haqqında danışır və onu sələflərindən ayıran məqamlara xüsusi diqqət göstərir. Mirzə İbrahimovun, Mehdi Hüseynin, Süleyman Rəhimovun, Əli Vəliyevin, Əbülhəsənin və başqa sənətkarların yaradıcılıqlarını inkar etmədən, o zaman gənc yazıçının onların ən yaxşı nəsr ənənələrindən bəhrələndiyini və həm də öz axtarışları ilə yeni yaradıcılıq keyfiyyətlərinə sahib olmasını vacib - varislik əlaqəsi kimi diqqətə çatdırır.

Bu məqalədə diqqəti cəlb edən bir cəhəti ayrıca qeyd etmək istərdim: Şəfəq öz yazısında yazıçının ədəbi qəhrəmanlarını sanki həyatdan tanıdığı insanlar kimi xarakterizə edir: "...hər cür haqsızlığa qəzəblənən adamlar... bunlar heç də bir rənglə, bir boya ilə təsvir olunan sürətlər deyil, onların xarakterlərində, əməllərində, istək və arzularında rəngarənglik, müxtəliflik ilk baxışdan diqqəti cəlb edir. Təbiilik, sadəlik bu surətləri sevdirir." Elə bu qeydlər göstərir ki, kitaba toplanmış hekayələrin fikir daşıyıcısı olan insanları - Qulu və Qürbət Əzizovları, direktor Məleməşi, ona qarşı mübarizə aparan Sadığı ("Təmiz mahnı»), Həbibi ("Əgər tapışmasaydı"), Sərvəri, Əjdəri ("Ürək yaman şeydir"), Sadığı ("Səyyad müəllimin oğlu"), Xaliqi ("Şanlı məktub") yaxşı tanıyır. Onları böyüdüyü mühitdə görüb, kimlikləri haqqında təsəvvürü var. Məqalə müəllifi yazır ki, yazıçı bu adamları yaxşı tanıdığına, duyduğuna görə surətlər real, həyati boyalarla təsvir edilmişdir. Və elə buradaca qeyd etmək yerinə düşər ki, məqalə müəllifi də bu adamları yetirən mühiti yaxşı tanıdığından obrazları öz fərdilikləri ilə görə bilir. Gənc tənqidçi yazıçı mövqeyi ilə razılaşdığını son nəticə kimi qeyd etmir. Yazıçının "yaratdığı adamları" süzgəcdən keçirir və belə bir yazıçı qayəsini öz mövqeyi ilə eyniləşdirir: "...adamların tərbiyəsini, haqq yola qayıtmasını standart, şablon ölçülərlə müəyyənləşdirmək olmaz. Adam var ki, onu heç islah-əmək düşərgəsi də tərbiyələndirə bilmir, adam var ki, adi bir sözdən, adi bir eyhamdan sarsılır və dəyişir." Bu düşüncələr göstərir ki, tənqidçi yazıçı ilə həyat arasındakı əlaqələri görünən və görünməyən tərəfləri ilə birgə qavrayır, insanların mənəvi mühitindəki ziddiyyətləri yazıçının özü qədər görə bilir. Bu ziddiyyət məqamlarına insanların xarakterinin formalaşması üçün psixoloji hərəkət mexanizmi kimi baxır. Əlimizdə olan hələlik ilk adlandırdığımız bu ədəbi-tənqidi məqalə Şəfəqin düşüncə imkanlarının genişliyinə və dərinliyinə əyani sübutdur. O, əvvəlcə yazıçının mövzu hüdudlarını müəyyənləşdirir, sonra ustadlarısayaq ədəbi nəsillər arasındakı varisliyə münasibət bildirir və bundan sonra nəhəng insan dənizi içərisində görünən adamları insan eləyən keyfiyyətlərin üzərinə özünün baxış bucağından işıq salır.

Şəfəqin ilk ədəbi-tənqidi məqaləsində o dövrün görkəmli ədəbiyyatşünaslarının, tənqidçilərinin ədəbi tənqid üslubunun təsiri də hiss olunur. Ancaq bu təsir gənc tənqidçinin ədəbi tənqid manevrləri üzərinə kölgə salmır. Yazı Şəfəqin tələbəlik illərində - 22 mart 1975-ci il tarixli "Ədəbiyyat və İncəsənət" qəzetində dərc olunub.

Gənc tənqidçinin "Nabat xalanın çörəyi" məqaləsi birinci yazıdan təqribən üç ay sonra (iyun1975-ci il) yenə "Ədəbiyyat və İncəsənət" qəzetində dərc olunub.

Nəriman Həsənzadə yaradıcılığının ilk çağlarından şair səmimiyyəti ilə ədəbi tənqidin diqqətini cəlb etdiyi kimi, oxucuları arasında da çox tez tanınıb, ən başlıcası, çox tez sevilib. Sevgi lirikası, gözəl poemaları ilə sevilən Nəriman Həsənzadə qəflətən yeni nəsr əsəri ilə oxucu mühitində şimşək kimi çaxdı. Və çoxları bu əsərə biganə olmadığı kimi, Şəfəq də "Nabat xalanın çörəyi"nin ecazkar ətrindən necə hissiyatlandığını, duyğulandığını qəlbindən gələn bir istəklə qələmə gətirməli oldu. Bu ədəbi-tənqidi məqaləsində də Qulu Xəlilovun, Bəkir Nəbiyevin... və digər tənqidçilərin ədəbi üslubu Şəfəq üçün örnək olub. O, sanki peşəkarlıqla təhlilə çəkmək istədiyi mövzunun yazıçı dünyasına gəlişinin psixoloji köklərini diqqətə çəkir. Başqa sözlə, şair Nəriman Həsənzadənin nəsr əsərinin göydəndüşmə olmadığını göstərir. Gənc tənqidçi bildirir ki, Nəriman Həsənzadənin poemaları, xüsusilə, "Nəriman" poeması şairin nəsr yaradıcılığına (həm də gələcəkdə dramaturgiyaya) keçiddə əsas körpüdür. Başqa sözlə, "Nabat xalanın çörəyi" əsəri üçün özül, elə Nəriman Həsənzadənin öz yaradıcılığı - lirik, epik yaradıcılığıdır. Qısa girişdən sonra məqalə müəllifi bir neçə cümlənin içərisində əsərin mövzusu, əsas obrazlar, bədii faktın estetik qayəsi haqqında məlumat verir: "Nabat xalanın çörəyi" heç bir zaman təravətini itirməyən, həmişə müasir səslənən ciddi bir mövzuya - analıq ləyaqətinə, qadınlarımızın həyatına, fikir və düşüncələrinə, övlad məhəbbətinə həsr olunmuşdur. Nabat xalanın həyat yolu ilə bərabər, başqa bir motivə - oğlu Qiyamla Fərəh arasındakı sevgi münasibətlərinə, həmçinin Qiyamın əsgərlik həyatına da povestdə xeyli yer verilmişdir."

Əlbəttə, Nəriman Həsənzadənin "Nabat xalanın çörəyi" povestini məğzi haqqında danışmaq o qədər də çətin deyil. Çünki əsər açıq fikir üslubunda, sadə bir dillə yazılıb, xüsusilə, yazıçı səmimiyyəti əsərin əvvəlindən axırına qədər özünü göstərir. Kənddə hamı Nabat xalanın çörəyinin ətrindən danışır. Bəs bu ətrin sirri nədədir?

Yəqin ki, tənqidçi burada çörəyin bişirilmə qaydasının gözlənilməsindən, çörəyin bişib yaxşı hala gəlməsindən, bir sözlə, Nabat xalanın çörəkçilik sənətindən geniş və əhatəli danışa bilərdi. Və yəqin ki, oxucu özü çox da dərindən düşünmədən çörəyin ətirli olmasını Nabat xalanın bacarıqlı, yaxşı çörəkçi olması ilə bağlaya bilər. Amma, tənqidçi çörəyin ətirli olmasının səbəbini başqa bir məsələ ilə bağlayır. Və bu zaman təsvirində sanki yazıçı ilə yarışa girir. Deyəsən, Şəfəqin qələmində onun yazıçılığı ilə tənqidçiliyi birləşir və uğurlu bir düşüncə məqamı ərsəyə gəlir:

Demək, tənqidçi çörəyin ətirli olmasının sirrini çörəkçinin insanlara olan məhəbbətində görür. Bu o zamanın düşüncə imkanında Şəfəqin uğuru idi.

*(Davamı var)*